**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 10**

**Bakı şəhəri** **27 fevral 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Bəsdi Hikmət qızı Şəmiyevanın Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Dövlət idarəetməsi və hüquqpozmalar statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 13-də keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Şəmiyeva Bəsdi Hikmət qızı Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Dövlət idarəetməsi və hüquqpozmalar statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il dekabr ayının 18-də elan edilmiş daxili müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2026-cı il fevral ayının 13-də Dövlət Statistika Komitəsi aparatının Sosial statistika şöbəsinin müdiri Elçin Hacı, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rafiq Vəliyev və müstəqil ekspert Elizə İsmayılovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Şəmiyeva Bəsdi Hikmət qızına müsahibə komissiyasının üzvlərindən E.Hacı 15 bal, R.Vəliyev və E.İsmayılova 16 bal vermiş və nəticədə iştirakçı 15.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 16.02.2026-cı il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edildiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Şəmiyeva Bəsdi Hikmət qızının Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Dövlət idarəetməsi və hüquqpozmalar statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 13-də keçirilən daxili müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: